# Qoca Şərqin güzgüsü

**Felyeton**

*Böyük yazıçı Cəlil Məmmədquluzadənin ədəbi-ictimai fəaliyyəti və onun "Molla Nəsrəddin" jurnalı Azərbaycan tarixinin ən parlaq səhifələrindən birini təşkil edir. Xüsusilə, "Molla Nəsrəddin" jurnalının nəşrə başlaması yalnız Azərbaycanda deyil, Yaxın və Orta Şərqin mədəni həyatında da mühüm hadisə idi. Orada qaldırılan məsələlər mətbuatda, ictimai dairələrdə qızğın fikir mübadiləsinə səbəb olurdu. Şübhəsiz ki, bütün bunların hamısı jurnalın ictimai-siyasi həyatda tutduğu mövqedən, onun ideya istiqamətindən və xalq həyatında oynadığı ciddi roldan irəli gəlmişdi. Hüququ əlindən alınmış, əsrlər boyu istismar və mövhumatın ağırlığı altında əzilən zəhmətkeş kütlələrin taleyi, acınacaqlı həyatı və müqəddəratı ilə əlaqədar məsələləri jurnal öz səhifələrində müntəzəm surətdə əks etdirmişdir.*



*...Ay qardaşlar, mən ki dilsiz xəlq olunmamışam, bu dilləri ağzıma soxursunuz...*

## Bizim "obrazovannı"lar

Mənim bir rəfiqim var, özü də müsəlmandır, amma məni görəndə rus dilindən savayı özgə dildə danışmaz. Məsələn, söhbətimiz bu cür olur: mən onu görəndə deyirəm:

- Hardan gəlirsən?

O mənə belə cavab verir:

- Ya xodil na poçtu.

Deyirəm:

- Dünən niyə bizə gəlmədin?

Cavab verir:

- K nam prişli qosti.

Deyirəm:

- Yaxşı, qonaqlar gedəndən sonra gələydin!

Cavab verir:

- Net, uje bılo pozdno.

Deyirəm:

- Söz verirsən ki, sabah gələsən, bir az söhbət edək?

Cavab verir:

- Postarayus, no slovo ne dayu.

Deyirəm:

- Xudahafiz!

Cavab verir:

- Do svidaniya!

Amma dostumun bir şeydən xəbəri yoxdur: xəbəri yoxdur ki, mən də rusca bir az danışa bilirəm!..

Axırı bir gün dostumdan soruşdum:

- Mən ölüm, mənə sözün doğrusunu de görüm, sən ki, otuz səkkiz il müsəlman içində tərbiyə tapıbsan, xəta olmadı ki, bir az rusca oxudun? Nə səbəbə sən mən ilə heç müsəlmanca danışmaq istəmirsən?

Yoldaşım mənə rus dilində belə cavab verdi:

- İsluşay, kak-to istıdno koqda obrazovannıy çelovek po-tatarski qovorit!.. (yəni, obrazovannının müsəlmanca danışmağı eyibdir!).

- Çox sağ ol, rəfiqim, mən bunu bilmirdim!..

Deyirlər ki, haman mənim rəfiqim rus işkolunda oxuyan vaxt bir gün anasına deyib:

- Ana! Pajalusta, mənə bir şey "svarit" elə! (yəni, bişir!).

Anası cavab verib:

- Bala, nə dedin?

Rəfiqim cavab verib:

- Ox, ox! Siz heç bir zad qanmırsınız! Mən deyirəm: bir zad bişir.

- Bala, nə bişirim?

- Çort yeqo iznayet!.. Yadımdan çıxıb... Yumru olur, əti döyüb salırlar çölməyə, ya qazana. Bir cür adı var...

- Bala, küftə deyirsən?

- Hə...hə... qofta, qofta!

**"Molla Nəsrəddin", 14 aprel, 1906, N 2.**

Azərbaycan.- 2019.- 2 fevral.- S.11.